Prof. Dr. Yaqub Mahmudov 80. Yıl Armağanı Özel Sayısı
ISSN:2148-2292
Akademik Tarih ve Düşünce Dergisi, 6(5) Kış 2019 ss. 288-300
Academic Journal of History and Idea, 6(5) Winter 2019 pp. 288-300
Araştırma Makalesi
Original Article

# Azərbaycanda İctimai-Siyasi Fikrin Formalaşmasında Neft Amili

**Nailə Hüseynova***

**ORCID: 0000-0002-4910-6717**

**Xülasə**

Hər bir xalqın özünün milli sərvəti var. Azərbaycanın isə əsas milli sərvəti neftdir. Zaman - zaman bu sərvətə sahiblik etmək niyyəti dünya dövlətlərini bir-birinə qarşı qoymuşdur. Bu səbəbdən də Azərbaycan uzun müddət öz milli sərvətinə sahib çıxa bilməmişdir.XIX yüzilliyin sonu XX yüzilliyin əvvəllərində Azərbaycan çar Rusiyasının müstəmləkə əsarətində olmuşdur. Rusiya müstəmləkəçiliyi dövründə Azərbaycanın neft sənayesi xarici neft şirkətlərinin nəzarətinə verilərək milli kapital sıxışdırılmışdır. Müstəmləkə şəraitində neft sənayesində inkişaf olsa da, bu sahədəki gəlir əsasən xarici neft maqnatlarına və çar xəzinəsinə aid olmuşdur. Yaranmış vəziyyət milli sərvətin talanmasına və nəticədə milli sərvətə sahiblik hisslərinin artaraq istimai-siyasi fikrin formalaşmasına səbəb olmuşdur.

**Açar sözlər:** demokratik dövlət, milli sərvət, neft, milli hərakat

**Gönderme Tarihi: 25/11/2019** **Kabul Tarihi:26/12/2019**

---

* *Doç. Dr. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, "Azərbaycanın Beynəlxalq Əlaqələr Tarixi" şöbəsi, a.e.i., t.ü.f.d, E-mail: naile-bayramova@rambler.ru*

© ATDD Tüm Hakları Saklıdır

CC BY

# Oil factor in the formation of public and political opinion in Azerbaijan

**Naile Huseynova**

**Abstract**

Each nation has its own national resources. The main national resource of Azerbaijan is oil. From time to time, the intention of owning this wealth has brought the nations of the world against each other. Because of this, Azerbaijan had not been able to master its national wealth for a long time. At the end of the 19th century at the beginning of the 20th century Azerbaijan was in colonial slavery of Tsarist Russia. During the Russian colonization, the oil industry of Azerbaijan was under the control of foreign oil companies and the national capital was brought to bay. Despite the developments in the oil industry in colonial conditions, income in this area basically belonged to foreign oil magnates and tsar treasure. This situation has led to the plundering of national wealth and, as a consequence, an increase in the sense of ownership of national wealth and the formation of socio-political views.

**Key words:** democratic state, national wealth, oil, national movement

**Received Date: 25/11/2019** **Accepted Date: 26/12/2019**

# Нефтяной Фактор В Формировании Общественно-Политического Мнения В Азербайджане

**Наиля Гусейнова**

**Резюме**

Каждый народ имеет свое национальное достояние. Для Азербайджана таковым является нефть. Намеренияовладеть этим богатством сталкивало великие государства. По этой причине Азербайджан долгое время не мог стать полновластным хозяином своегонационального богатства. В XIX - начале XX века Азербайджан находился под колониальным господством царской России.В этот период нефтяная промышленность Азербайджана была отдана под контрольиностранных нефтяных компаний, вытеснивтем самым национальный капитал. Несмотря на развитиенефтяной промышленности, доходы от нее получали, в основном,иностранные нефтяные магнаты и царская казна. Создавшееся положение привело к разграблению национального богатства и, как следствие, к усилению стремления обладания им и формированию общественно-политического сознания азербайджанского народа.

**Ключевые слова:** демократическое государство, национальное богатство, нефть, национальное движение

**Получено: 25/11/2019** **Принято: 26/12/2019**

Cilt:6 / Sayı:5
Kış 2019

*" Neft Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük milli sərvətidir...Azərbaycanın, Bakının inkişafında neftimizin böyük rol oynadığını xüsusi qeyd etməliyik."*
***Heydər Əliyev***

## Giriş

Bir əsrə yaxındır ki, Azərbaycanın çar müstəmləkəçiliyinə qarşı apardığı mübarizə tarixi tədqiq edilir. Həmin mübarizə ana dili mətbuatının nəşrindən başlayaraq maarifçilik hərəkatı ilə davam etmiş, demokratik azadlıqlar, Rusiya imperiyasındakı türk müsəlman xalqlarının birliyinə nail olmaq uğrunda mübarizə, milli ərazi muxtariyyatı və müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasına qədər yüksələn təkamül mərhələlərindən keçmişdir.[1] Xronoloji baxımdan milli istiqlal mübarizə tarixinin mərhələlərini aşağıdakı kimi təsnif etmək olar: 1. 1875-1905- ci illər - başlanğıc dövr və ya " Əkinçi" dövrü; 2. 1905-1917 - ci illər açıq siyasi mübarizə dövrü; 3. 1917- ci il mart – oktyabr – milli muxtariyyat dövrü. Milli demokratik dövlətin yaradılması ideyası isə məlumdur ki, I dünya müharibəsi dövründə yetkinləşmiş və AXC - nin yaranması ilə həyata keçirilmişdi. Bu prosesdə Ə. Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov və digər Azərbaycan milli ziyalıları xüsusi rol oynamışdılar. İslami birlik xəttinin qabarıqlığı ilə seçilən bu dövr milli istiqlal uğrunda mübarizə tarixinin " canlanma" dövrü kimi xarakterizə olunur.[2] Təhlil edilən bütün dövrlərdə aparılan mübarizələr Azərbaycanın öz milli sərvətlərinə sahiblik etməməsi səbəbindən baş verirdi.

Hər bir xalqın özünün milli sərvəti var. Azərbaycanın isə əsas milli sərvəti neftdir. Zaman – zaman bu sərvətə sahiblik etmək niyyəti dünya dövlətlərini bir-birinə qarşı qoymuşdur. Bu səbəbdən də Azərbaycan uzun müddət öz milli sərvətinə sahib çıxa bilməmişdir.

---

[1] Xəqani Məmmədov, *Azərbaycanın milli istiqlal mübarizəsi. XIX yüzilliyin sonları- XX yüzilliyin əvvəlləri*, Bakı: Elm, 2005, 3.
[2] Məmmədov, *Azərbaycanın milli...*, 4-5.

**Azərbaycanda ictimai-siyasi fikrin formalaşmasında neft amili**

XIX yüzilliyin sonu XX yüzilliyin əvvəllərində Rusiya müstəmləkəçiliyi nəticəsində ayrı-ayrı xarici şirkətlərin nəzarətinə verilən neft sənayesindəki vəziyyət ümumilikdə Azərbaycanda ictima-siyasi fikrin formalaşmasına öz təsirini göstərməkdə idi. Azərbaycanda neft sənayesində milli kapitalın payı yalnız H.Z.Tağıyevin, M.Nağıyevin, Ş.Əsədullayevin, M.Muxtarovun və s. milyonçuların payına düşürdü. Müstəmləkə rejimi milli burjuaziyanın iqtisadiyyatda və siyasi həyatda möhkəm yer tutmasına mane olurdu.[3]1870-ci ildə bütün Bakı neftinin yarısını istehsal edən quyuların 88 % - i milli burjuaziyanın əlində olduğu halda, 1872-ci ildə onların ixtiyarındakı quyuların payı 13%-ə qədər azalmışdı.[4] XIX əsrin sonlarında Azərbaycan neft sənayesi iki mühüm kapital qoyuluşu mənbəyinə malik idi. Birinci mənbə H.Z.Tağıyev[5] , M.Nağıyev[6], A.İ.Mantaşov[7]", Q.M. Lianozov[8] və digərlərinin timsalında azərbaycan və erməni kapitalı, digər mənbə Peterburq metal zavodları sahibkarları A.E.Nobel[9], P.A.Bilderling[10],S.M.Şibayev[11] və başqalarına mənsub kapital təşkil edirdi.[12] Bir sözlə inqilabi ənənələrə malik Bakı şəhərində milli kapitalı nəzərə almasaq, neft maqnatları meydan sulayırdılar.

1880- ci il mayın 1-də xarici kapitalistlərin Bakı rayonundakı neft mədənlərinə buraxılması haqqında məsələ üzrə xüsusi müşavirənin qəbul etdiyi qərarında "Əcnəbilərin və əcnəbi cəmiyyətlərin hazırkı zamanda rus neft sənayesində iştirakının faydalı və arzuedilən olduğu elan edilmişdi".Çarizmin "himayədarlığından sui-istifadə edən xarici şirkətlər tərəfindən neftli torpaq sahələrinin, " xəzinə və xəzinə - icma

---

[3] Məmmədov, *Azərbaycanın milli...*, 14.
[4] Məmmədov, *Azərbaycanın milli...*, 14.
[5]Şərq aləminin ilk messenatı, Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinə zərbə vuran ilk milli sənayeçimiz.
[6] Sabunçuda, Ramanada, Bibiheybətdə, Suraxanıda neft mədənləri olan, Qaraşəhərdə xüsusi neftayırma zavodu tikdirən Bakı milyonçusu və xeyriyyəçisi.
[7] Əslində erməni mənşəli F.İ.Mantaşyan neft ixracı ilə məşğul olan, "neft kəməri" ləqəbini almış, Bakıda erməni "neft kralı".
[8] Əslində erməni mənşəli Qevorq Martınoviç Lianosyan ;Rusiya Neft Sənayesi Cəmiyyətinin sədri, Bakıda neft yataqları və kerosin zavodunun sahibi.
[9] Suraxanıda, Balaxanıda, Bibiheybətdə mədən sahələri olan, Ağşəhərlə Qaraşəhər arasında zavodlar tikdirən,ilk neft daşıyan gəmi - tanker - "Zoroast" ( Zərdüşt) sahibləri.
[10] İsveç kapitalisti Lüdovik Nobel ilə birlikdə "Nobel qardaşları" şirkətini yaradan, İjevsk şəhərindəki silah zavodu üzrə Nobellərin ortagı, Peterburqlu baron və sənayeçi.
[11]. XIX əsrin sonu –XX əsrin əvvəllərində Azərbaycan neft sənayesinə sərmayə qoyan xarici neft maqnatlarından biri.
[12] Məmmədov, *Azərbaycanın milli...*, 14.

torpaqlarının ” özbaşına tutulması dövlət və sərmayədarlar arasında mübarizələrə gətirib çıxarırdı.[13]

XIX əsrin sonlarında müstəmləkə şəraitində olmasına baxmayaraq Azərbaycanın neft sənayesində sürətli inkişaf dövrü kimi xarakterizə olunur. Çar hökumətinin 1872-ci il 1 fevral “Neft mədənləri haqqında qaydalar və fotogen istehsalından aksiz alınmasına dair” və 17 fevral iltizam sisteminin ləğvinə dair fərmanından sonra dövlət neft torpaqları hərrac yolu ilə xüsusi adamlara satılmağa başlayır, bu isə neft sənayesinin inkişafına təkan verməklə[14] bərabər, milli sərvətin də təəssüf ki, sürətlə *talanmasına* təkan verdi.

XIX əsrin ikinci yarısından etibarən neft sənayesində yeni texniki üsulların tətbiqi Bakının əsas neft rayonuna çevrilməsinə səbəb olmuşdu. Ümumiyyətlə, Azərbaycanda kapitalist münasibətlərinin formalaşması və inkişafı xalqın milli birlik ideyalarını gücləndirirdi və milli sərvətə, o cümlədən neftə sahiblik hisslərini artırırdı.

Bu dövrdə neft mədənlərində sahibkarların özbaşınalığına qarşı çevrilən çıxışlarda – tətil və nümayişlərdə siyasi cəhətdən yetkinləşən fəhlələr getdikcə siyasi hərəkatlardan çox ictimai hərəkata qoşulurdular. Onların ictimai təşkilatlarda birləşməsi, təşkilatlanması marksist ideyalardan uzaqlaşaraq milli ideyalara yaxınlaşmasına daha çox kömək edə bilirdi. Qeyd etmək lazımdır ki, ilk illərdə inqilabi hərəkatın başlanğıcında fəhlə çıxışlarında başlıca tələb əmək haqqının artırılmasından ibarət idi. Lakin 1919- cu il aprel-may aylarında Mart hadisələrinin ildönümü ilə əlaqədar baş verən tətillərdə, xüsusilə də H.Z.Tagıyevin fabrikində, Suraxanıda neft mədənlərində baş verən fəhlə tətillərində tətilə çıxan fəhlələr arasında “ Musavat” partiyasının nümayəndələri təbligat apararaq yalnız iqtisadi tələblərlə deyil,həm də siyasi tələblərlə çıxış etməyi tövsiyə edir, həmşinin, Azərbaycanın müstəqilliyinə qarşı çıxan hər hansı bir qüvvəyə qarşı çıxmaq lazım oldugunu bildirirdilər.[15]

Dünyada neft uğrunda mübarizənin tərkib hissələrindən birini məhz Azərbaycan nefti təşkil edirdi. Neft uğrunda mübarizənin sivil qaydada aparıldığı müasir dövrdən fərqli olaraq əvvəlki dövrlərdə - ictimai- siyasi hadisələrin çox coşğun dövründə vəziyyət bir qədər fərqli idi.

---

[13] Məmmədov, *Azərbaycanın milli...*, 15.
[14] Məmmədov, *Azərbaycanın milli...*, 13.

[15] Azərbaycan, Bakı: 24 yanvar 1919, №33, 2.

XX əsrin əvvəllərində neft sənayesində çalışan fəhlələrin tətilləri neft hasilatının ümumi həcminə mənfi təsir göstərən zaman şirkət sahibləri çıxış yolunu neftin qiymətinin qaldırlmasında görürdülər.1915-ci ildə M.Y.Cəfərov Qafqazın müsəlman əhalisinin çətin vəziyyəti haqqında Rusiya Dövlət Dumasının sədri M.V.Rodzyankoya müraciət edir. Lakin həmin müraciət nəticəsiz qalır.[16] Beləliklə, neft kimi sərvətinə sahib çıxa bilməyən əhalinin hüquqları tapdalanırdı. Azərbaycan nefti müstəmləkəçi dövlətlərin istismarına məruz qalmaqda davam edirdı. Bu zaman tarixi zərurət olaraq müxtəlif cəmiyyətlər, təşkilat və partiyalar yaranır və onlar neft sənayesində çalışan fəhlələr arasında "hürriyyət və inqilabi fikirləri" təbliğ edirdilər.

Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Topçubaşov və M.Ə.Rəsuladə hürriyət və azadlıq üçün türkçülüyü, islamçılığı əsas ideologiya kimi qəbul edəndə azadlıq üçün Türkiyənin dəstəyinə əminliklə yanaşırdılar. Azərbaycanın ictimai-siyasi xadimlərini Türkiyəyə " türkçülük-islamçılıq" şüarı daha da yaxınlaşdırırdı. 1918- ci il dekabrın 7-də keçirilən AXC-nın parlament iclasının açılışında iştirak edənlərin 90% - ni təşkil edən fəhlələr arasında belə "türkçülük-İslamçılıq" şüarı qəbul edilən oldu. "Türkçülük-İslamçılıq" şüarını sosializm ideyalarına aludə olan neft sənayesi fəhlələri arasında təbliğ etmək o dövr üçün çox çətin idi.[17] Azərbaycanda ictimai - siyasi fikrin formalaşmasında müxtəlif cəmiyyət və təşkilatların rolu misilsiz olmuşdu. Həmin cəmiyyətlərin yaranmasının vacibliyini vurğulayan Azərbaycan milyonçusu H.Z.Tağıyev çıxışlarının birində deyirdi: "...bizim torpağımızı əlimizdən alıblar və onun üzərində milyonlar qazanırlarBiz isə yatırıq".[18] Millətin öz sərvətinə sahib çıxmaq istəyi bir daha onu göstərir ki, ictimai- siyasi fikrin formalaşmasında Azərbaycanın əsas sərvəti olan neft mühüm rol oynamışdı. H.Z.Tağıyev uzun müddət hər hansı bir cəmiyyət yaratmaq arzusunda olmuşdu. Elə bir cəmiyyət ki, onun fəaliyyəti yalnız şəhərlə məhdudlaşmasın, o, ictimai- siyasi hərəkatda olan ziyalıların fəaliyyətinin bütün quberniyalara yayılmasını lazım bilirdi.[19] "Millət öz sərvətinə ziyalıların gücü ilə daha tez sahib olar",- desək heç də yanılmarıq.

Müsəlman şərqində ilk demokratik respublika olan AXC dövründə də iqtisadiyyatın inkişafı aparıcı sahə olan neft sənayesi ilə bağlı idi. Buna görə də

[16] AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxivi, qutu 195, iş kodu 6495, iş 4, 10.
[17] Sevda Süleymanova , *Azərbaycanda ictimai-siyasi hərəkat XIX yüzilliyin sonu XX yüzilliyin əvvəlləri*, Bakı: Azərbaycan Dövlət Kitab Palatası,1999, 348.
[18] Süleymanova, *Azərbaycanda ictimai-siyasi hərəkat.*, 156.
[19] Süleymanova, *Azərbaycanda ictimai-siyasi hərəkat.*,123.

1918-ci il oktyabr 5-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti neft sənayesinin milliləşdirilməsi haqqında xüsusi dekretlə neft mədənlərini, Xəzər ticarət donanmasını, zavod və emalatxanaları bütünlüklə neft sahibkarlarına qaytardı, istehsal edilmiş neftin üçdə iki hissəsini onlara verdi, qalan hissəsini isə öz sərəncamında saxlamışdı. Həmin dekretlə Azərbaycan neftinin Rusiyaya daşınması da qadağan olunmuşdu. Bu sahənin inkişafı ilə bağlı AXC - nin 1919-cu ildə elan etdiyi dekret isə xüsusi əhəmiyyət kəsb edir. Bu dekretə görə neft sənayesi üzərində dövlət nəzarəti qoyuldu, neftin və neft məhsullarının Batuma daşınmasına və satılmasına, mal mübadiləsinə icazə verildi. Dekretlə bağlı 1919 – cu ilin mart ayında uzunluğu 500 km, nəql gücü 3 milyon ton olan 1903- 1907- ci illərdə tikilən və müharibə illərində sıradan çıxmış Bakı - Batumi neft kəməri bərpa edildi və ilk neft yola salındı.[20]

1919-cu il mayın 8-də keçirilən AXC parlamentin plenar iclasında "Musavat" partiyasının Bakı komitəsinin müraciətində qeyd edilirdi ki, hökumətdən Həştərxan yolunu açmaq və bolşevikləri neftlə təmin etmək tələb olunurdu. Həyəcanlı çıxışda bu da bildirilirdi ki, "lakin dənizin bizə aid olmadığını fəhlələr də yaxşı bilirdi".[21] Çünki, bu zaman dənizdə hegemonluq ingilislərin əlində idi. Həyəcanlı tələblərə həm də həyəcanlı bildirişlər əlavə edilirdi. Azərbaycanın müstəqilliyi üçün ciddi təhlükənin mövcud olması "Musavat" partiyasının Bakı komitəsini narahat edən məsələlərdən idi. Müxtəlif maskalar altında Azərbaycanın müstəqilliyinə qarşı gizli mübarizə aparan qüvvələr Rusiyanın tərkibinə daxil olmaq üçün fəhlələr arasında təbliğat aparırdılar. Lakin birləşmək təbliğatını Denikin təhlükəsi ilə bağlayırdılar. Bolşeviklər fəhlələri aldadaraq onları Azərbaycan hökuməti üçün ciddi təhlükə olan tətillərə təhrik edirdilər. Neft sənayesinin iflic vəziyyətə düşməsinə səbəb olan həmin fəhlə tətilləri, həm də Azərbaycanda ictimai- siyasi fikrin düzgün formalaşmasına öz mənfi təsirini göstərməkdə idi. Musavatın Bakı komitəsinin məlumatı:Biz üzdəniraq beynəlmiləlçilərin əli ilə yaradılan kədərli bir həqiqəti ifadə etmək istəyirik. Bakıda demokratik hərəkat nəticəsində iki bir-birinə əks olan düşərgə yarandı: müsəlman demokratiyası və qeyri-müsəlman demokratiyası. Birinci Azərbaycan milli partiyalarının rəhbərliyi ilə özünün milli hökumətini yaradan müsəlman demokratiyası, ikinci isə məsuliyyətsiz təbliğatçı elementlərin mart hadisələrindən öz maraqları üçün

[20]"AXC dövründə neft sənayesi ağır vəziyyətdən necə çıxarıldı?" https://1news.az/az/news/axc-dovrunde-neft-senayesi-agir-veziyyetden-nece-cixarildi. (18.04.2019).
[21] Azərbaycan, Bakı: 8 may 1919, № 93,1.

istifadə etməyə çalışaraq Sovet Rusiyasının bərpasına can atan qeyri-müsəlman "demokratiya. Müsəlman demokratiyası, fəhlə konfransının liderlərinin məqsədlərini başa düşərək öz siyasi maraqlarını nəyin bahaslına olursa olsun qorunmasına çalışırdı.[22]

Mayın 6- da fəhlə klubundan daxil olan məlumata görə tətil hərəkatı artmaqda idi. Təcili Həştərxan bolşevikləri ilə siyasi- iqtisadi əlaqələrin qurulması tələb olunurdu. Əks təqdirdə tətil hərəkatı artdıqca fəhlələrin işdən uzaqlaşması ilə əlaqədar olaraq neft iki gün ərzində küçələrə axacaq, bu isə Azərbaycan neftinin qiymətinin kəskin aşağı düşməsi ilə nəticələnəcək.[23]

Azərbaycan hökuməti bu çətinlikləri dəf etmək üçün müxtəlif müqavilələr bağlamğa hazır idi. Nobellər formal olaraq yuxarıda qeyd edilən maneələri aradan götürmək üçün neftin əsas hissəsinin yalnız gəmi vasitəsilə 3500000 pud neftin daşınmasını Azərbaycan hökumətinə vəd edir. Lakin çar hakimiyyəti dövründə Azərbaycan neft sənayesinə kapital qoyan xarici şirkətlər öz kapitallarını nə bolşeviklərə, nə də Azərbaycan hökumətinə güzəştə getmək fikirləri yox idi.

1919-cu ildə Mart hadisələrinin ildönümündən bolşeviklər məharətlə istifadə edərək fəhlələri tətilə çağırırdılar. Azərbaycan hökumətinin rəhbəri Nəsib bəy Yusifbəyli parlamentin iclasında fəhlə tətillərinə münasibətini bildirərək, qeyd edirdi ki, Azərbaycanın müstəqilliyi Azərbaycanın demokratiyası üçün o qədər qiymətlidir ki, nəinki neft ehtiyatını, hətta o özünü belə qurban verməyə hazırdır .[24]

1919-cu ildə neft sənayeçilərinin ümumi yığıncağında sənayenin ümumi böhrandan çıxmağın yolları müzakirə edilir. Böhrandan çıxmaq üçün yollar axtarılmasa, anarxiya və sənayedə daha da zəifləmənin baş verəcəyi barədə xəbər verilirdi. Bu zaman vəziyyətlə bağlı Qulubəyov vəziyyəti xarakterizə edərək obrazlı şəkildə qeyd edirdi ki, " yaxşı olardı ki, bizi elə toxlar[25] yesin, aclar[26] bizə hücum etsələr, bizi elə yeyəcəklər ki, bizdən heç bir əsər- əlamət qalmayacaq." Azərbaycan hökuməti özünün ümumi maraqlarına uyğun olaraq zavod sahiblərinin separatçılıq cəhdlərinin qarşısını almaq üçün yollar axtarmaqda idi.[27]

[22] Azərbaycan, Bakı: 8 may 1919, № 93, 1.
[23] Azərbaycan, Bakı: 8 may 1919, № 93, 1.
[24] Azərbaycan, Bakı: 8 may 1919, № 93, 2.
[25] Xarici kapitalistlər.
[26] Bolşeviklər.
[27] Azərbaycan, Bakı: 11 yanvar 1919, № 6, 1.

1918-1919-cu illərdə neft sənayesində vəziyyət kifayət qədər mürəkkəbləşmişdi. Baş verən böhranın səbəblərindən biri mart və sentyabr aylarında baş verən hadisələr olmuşdur. Belə ki, 1918-ci ilin mart-sentyabr aylarında baş verən hadisələr zamanı Bakı neft mədənlərini tərk edən fəhlə və qulluqçuların hesabına neft sənayesində böhran baş vermişdi. Neft sənayeçilərinin 1919 - cu il dekabrın 31- dən yanvarın 5- dək keçirilən ümumi yığıncağında bütün firmalara göstəriş verilir ki, 1918- ci il mart və sentyabr hadisələri zamanı Bakını tərk edən fəhlə və qulluqçular dekabrın 8-dək geri qayıtmayıblarsa, işdən çıxarılmış hesab edilirlər.[28] Bu bir tərəfdən ümumi vəziyyətin nizama salınmasına görə edilən cəhdlər idi, digər tərəfdən isə təbii ki, Azərbaycan hökuməti ilə vaxtilə Azərbaycan neft sənayesinə sərmayə qoyan xarici neft şirkətləri arasında ziddiyyətlərin daha da dərinləşməməsi üçün həyata keçirilən tədbirlər idi.

Qeyd etdiyimiz kimi Azərbaycan parlamenti Bakı sənaye fəhlələrinin maddi və mənəvi vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlər görürdü. Belə ki, Azərbaycan parlamentinin 1919 - cu il yanvarın 12-də keçirilən iclasında parlamentin sədri Müsavat Partiyasının Bakı sənaye fəhlələrinin, xüsusilə də neft sənayesi fəhlələrinin maddi və mənəvi ehtiyacları barədə Əmək Nazirinə müraciətini açıqlamışdı.[29] “Musavat” partiyasının üzvü A.K. Kazımzadə qeyd edirdi ki, son dövrlərdə sənaye rayonlarında fəhlələrin vəziyyəti getdikcə ağırlaşır. Onlar üçün təcili “fəhlə klubları” və peşəkar təşkilatların yaradılmasını zəruri hesab edirdi. Əhalinin çox hissəsinin fəhlə və kəndlilərdən ibarət olduğunu vurğulayan parlament üzvü onların vəziyyətinin tez bir zamanda yaxşılaşdırılması üçün ciddi tədbirlərin görülməsini diqqətə çatdırır, əks təqdirdə “dövlət böyük bir var-dövlətindən məhrum olacaq deyə, - Kazımzadə narahatlığını bildirmişdi.[30]

AXC dövründə dördüncü hökumət kabinetinin Ədliyyə və Əmək naziri, “sosial” fraksiyanın nümayəndəsi Aslan bəy Səfikürdski fəhlələrin vəziyyətinin yaxşılaşdırılması məsələsinin parlament iclaslarında müzakirəyə qoyulmasını alqışlayır.[31]AXC- nin bolşeviklərə əks olaraq fəhlə sinfinin vəziyyəti ilə maraqlanmaması barədə dolaşıq fikirlər yazılırdı.Belə ki, “Musavat” partiyasının üzvü A.K.Kazımzadə qeyd edirdi ki, “son dövrlərdə sənaye rayonlarında fəhlələrin vəziyyəti getdikcə agırlaşır. Onlar üçün təcili “fəhlə klubları” və peşəkar təşkilatların yaradılması

[28] Azərbaycan, Bakı: 12 yanvar 1919, №7, 1.
[29] Azərbaycan, Bakı: 12 yanvar 1919, №7, 3.
[30] Azərbaycan, Bakı, 12 yanvar 1919, №7, 3.
[31] Azərbaycan, Bakı, 12 yanvar 1919, №7, 3.

zəruridir. Azərbaycan əhalisinin çox hissəsi fəhlə sinfi və kəndlilərdən ibarət oldugu üçün hökumət onların vəziyyətinin yaxşılaşdırılması üçün tez bir zamanda ciddi və qəti tədbirlər görməsə, dövlət çox böyük "var dövlət"indən məhrum ola bilər.[32] Milli sərvət olan neftə sahib çıxmaq üçün Azərbaycan hökuməti yalnız fəhlələrin qayğısına qalmaqla kifayətlənmirdi. Neftin istehsalı, ixracı və s. məsələlərlə bağlı tədbirlər görməkdə idi.[33]

I dünya müharibəsi dövründə Almaniya rus iqtisadiyyatının mühüm mənbələrindən biri olan Bakı neft mədənlərinin məhv edilməsinə xüsusi önəm verirdi. Almaniya Baş qərargahının siyasi şöbəsinin rəsmisi Nadolnı Şulenberqə Bakı- Tiflis, Bakı – Dərbənd, Tiflis- Culfa dəmir yollarının müntəzəm işləməsinə mane olmaq üçün Bakıdakı neft anbarlarının məhv etmək kimi tapşırıq verilmişdir. Şülenberq Ərzurumda Ə.X.Xoyski (Fətəli xan Xoyskinin qardaşı oğlu) ilə görüşündə də Bakı neft mədənlərinin dağıdılması məsələsini ortaya atmışdı. Amma Ə.X.Xoyski Bakı neft mədənlərinin azərbaycanlıların gəlir mənbəyi olduğunu, xalqın neft mədənlərinə hər hansı bir ziyan vurulmasını istəmədiyini və mədənlərin möhkəm qorunduğunu Şülenberqə bildirərək, məsələyə qarşı çıxmışdı.[34]

---

[32] Azərbaycan, Bakı: 12 yanvar 1919, №7, 3.
[33] Azərbaycan, Bakı: 8 may 1919, № 93, 3.
[34] Vasif Qafarov, *Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi,* Bakı: Azərnəşr, 2011, 51.

**Netice**

Beləliklə, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanın müstəmləkə əsarətində oldugu müddətdə neft sənayesinə xarici kapitalın axını ilə bərabər, Azərbaycan neftinin amansız istismarı və xaricə daşınması ictimai-siyasi fikrin formalaşmasına zəmin yaradırdı. Azərbaycanın isə əsas milli sərvəti neftdir. Zaman - zaman bu sərvətə sahiblik etmək niyyəti dünya dövlətlərini bir-birinə qarşı qoymuşdur. Bu səbəbdən də Azərbaycan uzun müddət öz milli sərvətinə sahib çıxa bilməmişdir. Müstəmləkə şəraitində neft sənayesində inkişaf olsa da, bu sahədəki gəlir əsasən xarici neft maqnatlarına və çar xəzinəsinə aid olmuşdur. Yaranmış vəziyyət milli sərvətin talanmasına və nəticədə milli sərvətə sahiblik hisslərinin artaraq istimai- siyasi fikrin formalaşmasına səbəb olmuşdur.

**Ədəbiyyat**

Azərbaycan, Bakı: 11 yanvar 1919, № 6 .

Azərbaycan, Bakı: 12 yanvar 1919, №7.

Azərbaycan, Bakı: 24 yanvar 1919, №33.

Azərbaycan, Bakı: 8 may 1919, № 93.

AMEA A. A. Bakıxanov adına Tarix İnstitutunun Elmi arxivi, qutu 195, iş kodu 6495, iş 4.

QAFAROV, V., *Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi*. Bakı: Azərnəşr. 2011.

MƏMMƏDOV, X., *Azərbaycanın milli istiqlal mübarizəsi. XIX yüzilliyin sonları-XX yüzilliyin əvvəlləri*. Bakı: Elm, 2005.

SÜLEYMANOVA, S., *Azərbaycanda ictimai-siyasi hərəkat XIX yüzilliyin sonu XX yüzilliyin əvvəlləri*. Bakı: M.Ə.Rəsulzadə adına BDU-nin nəşriyyatı. Azərbaycan Dövlət Kitab Palatası, 1999.

www.1news.az// AXC dövründə neft sənayesi ağır vəziyyətdən necə çıxarıldı?// (18.04.2019).